***QENDER VƏ MƏDƏNİYYƏT***


| | |
|---|---|
| Müəlliftərtibatçı: | Fərəcova F.F. – Bakı Dövlət Universitetinin fəlsəfə tarixi və kulturologiya kafedrasının baş müəllimi |
| Elmi redaktor: | Abbasov A. – Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə elmləri doktoru, professor |
| Rəyçilər: | Quluzadə Z.A., fəlsəfə elmləri doktoru,<br>Axundov A.B., fəlsəfə elmləri namizədi |


## GİRİŞ

«Qender və mədəniyyət» kursu Azərbaycan Respublikasının dövlət və qeyri-dövlət ali məktəblərinin humanitar fakultələrində tədris olunmaq üçün nəzərdə tutulmuşdur.

Bu kurs qender münasibətlərinin kulturoloji təhlilinin nəzəri-metodoloji əsaslarını təqdim edir, qender və mədəniyyətin qarşılıqlı təsirinin tarixi aspektini açıb göstərir.

Kursun məqsədi – sosial hadisələrin tədqiqində qender metodologiyasının yayılması, qender rolunun ənənəvi sisteminin dəyişməsinin vacibliyini gənc nəslin dərk etməsi, qadın və kişi üçün bərabər imkanların formalaşması və reallaşmasında onun fəal və şüurlu şəkildə iştirak etməsidir.

Proqram 36 saatlıq kurs üçün nəzərdə tutulmuş və tematik plandan, kursun mövzularından və tövsiyə olunan ədəbiyyatın siyahısından ibarətdir.

## TEMATİK PLAN

| Mövzular | | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirələr | Seminarlar |
| 1 | Qender nəzəriyyəsinin nəzəri-metodoloji əsasları | 6 | 4 | 2 |
| 2 | Qender sosiomədəni fenomen kimi | 6 | 4 | 2 |
| 3 | Müasir qender tədqiqatlarına kulturoloji yanaşma | 6 | 4 | 2 |
| 4 | İbtidai cəmiyyət mədəniyyətində cins rolların münasibətləri | 2 | 2 | |
| 5 | Qədim dünya mədəniyyətində qender münasibətləri | 4 | 2 | 2 |
| 6 | Qender Orta əsr mədəniyyətində | 4 | 4 | |
| 7 | Qadın və kişi İntibah dövründə | 4 | 2 | 2 |
| 8 | Yeni dövr mədəniyyətində cinslərin qarşılıqlı münasibətləri | 4 | 2 | 2 |
| | CƏMİ | 36 | 24 | 12 |

## MÖVZU № 1. Qender nəzəriyyəsinin nəzəri-metodoloji əsasları

Qender nəzəriyyəsinin obyekti, predmeti və əsas anlayışları.

Qender bərabərsizliyinin təhlili qender araşdırmalarının əsas məqsədi kimi. Cəmiyyətin qender strukturu, qender stereotipləri, qender şüuru, qender münasibətləri, qender praktikası və qender rolları. Qender tədqiqatlarının ictimai praktika ilə əlaqəsi.

Qadın, qender və postqender araşdırmaları. Qərbi Avropa ölkələrində, ABŞ və postsovet məkanında qender tədqiqatlarının meydana gəlməsi və inkişafı.

Feminizmin əsas ideyaları, istiqamətləri və nəzəriyyələri. Qadın haqqında üstünlüyə tabeçi obyekt olaraq yanaşmağa dair patriarxat təsəvvürün feminist dekonsturksiyası. C.Lakanın, C.Derridin, M.Fukonun poststrukturalist konsepsiyaları – müasir feminizm fəlsəfəsinin əsası kimi. Feminizmin ingilis-amerikan istiqaməti və onun oriyentasiyası (B.Fridan, K.Millet). Feminizmin fransız fəlsəfi məktəbi və onun problemləri (A.İriqarey, K.Kleman, Y.Kristeva). Feminist ənənələr, təşəbbüslər və praktika alternativ mədəni-sosial məkan olaraq. Feminizm mədəni mövqe kimi.

## MÖVZU № 2. Qender sosiomədəni fenomen kimi

Cinslərin mədəni fərqlər problemi. Qadın marginallılığının sosial-sinfi, irqi, etnik və milli aspektləri. Şəhər və kənd qadınlarının mədəni antropologiyasının xüsusiyyətləri.

Cinslər arasındakı sosiomədəni münasibətlər (tarixi aspekt). Qenderin simvollaşdırılması. Maskulin idrak paradiqmaları.

Qadının mədəniyyətdən sıxışdırılıb çıxarılma vəziyyətinin formalaşması. Qadınlıq barəsində dini təsəvvürlər. İdeal qadınlığın ədəbi obrazları. İncəsənətdə qadınlığın təsviri: fədakarlıq, isteriklik. Mədəniyyətdə maskulinliyin prezentasiyası: qəhrəmanlıq, norma, realizm.

## MÖVZU № 3. Müasir qender tədqiqatlarına kulturoloji yanaşma

Müasir dünyada kişi və qadının rolu haqqında ictimai fikrin əsas istiqamətləri.

Ənənəvi patriarxat mədəniyyət: kişilərin üstünlüyü, qadının ikincidərəcəliliyi. Qender sisteminin rekonstruksiya imkanları.

İqtisadi istiqamət. İctimai istehsalatda qadınların işçi qüvvəsi olaraq daha az iqtisadi səmərəliliyi ilə iştirakının azaldılma vacibliyinin əsaslandırılması.

Siyasi istiqamət. Qenderin siyasi sosiallaşdırmaya təsiri. Siyasətdə qender stereotipləri və attitüdləri. Kişi və qadının siyasi davranış xüsusiyyətləri.

Demoqrafik istiqamət. İqtisadi cəhətdən daha çox inkişaf etmiş ölkələrdə doğumun azalması və depopulyasiya təhlükəsi ilə bağlı olaraq qadın məşğulluğunun ixtisar edilməsi vacibliyinin əsaslandırılması.

Eqalitar istiqamət. Qadın və kişilərin azad fəaliyyət seçimi təmin olunmaqla həqiqi bərabərliyə nail olmaq və cinsi mənsubiyyətindən asılı olmayaraq insanın inkişafetməsi üçün bərabər sosial şəraitin yaradılması.

## MÖVZU № 4. İbtidai cəmiyyət mədəniyyətində cins rolların münasibətləri

İbtidai cəmiyyətdə dərketmənin və təfəkkürün xüsusiyyətləri. İlkin qadın simvolikası. Qadın simvolikasının Azərbaycan ərazisindəki ibtidai cəmiyyət mədəniyyətində (Qobustandakı qayaüstü rəsmlər, Azıx mağarasındakı, Abşeron təpələrində, İsmayıllı, Ağsu və b. rayonlardakı arxeoloji tapıntılar) əks olunması.

İbtidai cəmiyyətdəki sosial rolların öyrənilməsi (M.Midin araşdırmaları). İbtidai cəmiyyətdə cins-rol münasibətlərinə müasir elmi baxışlar.

### MÖVZU № 5. Qədim dünya mədəniyyətində qender münasibətləri

Qadın asteklərin, mayya və inklərin dini baxışlarında. Vavilonda, Qədim Misirdə, Qədim Yunanıstanda və Qədim Romada kəbin-ailə münasibətlərinin və qadının dini-hüquqi statusunun qender təhlili. Antik mütəfəkkirlər qadının təbii mahiyyəti haqqında. Platon – ilk feminist filosof kimi. İudaizmdə və daosizmdə qadın özülü.

Qədim Azərbaycanda qadının ictimai statusu və onun müxtəlif dini baxışlarda əks olunması (zərdüştlük və mazdakistlik).

### MÖVZU № 6. Qender Orta əsr mədəniyyətində

Orta əsrləri səciyyələndirən təsəvvürlər. Orta əsr qadın idealı: qender təhlili. Qadın dini xristianlıq ənənəsində. «İfritə ovu». Rıtsarlıq və onun qadına münasibəti. Xristian qadının ictimai vəziyyəti və təsərrüfat həyatında onun iştirakı. Orta əsr Avropasında ailə-kəbin münasibətlərinin xüsusiyyətləri və sevgi haqqında təsəvvürlər.

Bibliya qadın haqqında. Müasir qender stereotiplərinin formalaşmasında xristianlığın rolu.

Quranda qadın obrazları. Müsəlman qadınının sosial-hüquqi statusu. Şəriət qanunlarında cins-rol münasibətlərinin əks olunması. Dini müsəlman ənənəsində qadının hüquqsuz vəziyyəti haqqındakı təsəvvürlərin əsassızlığı. Orta əsrlərdə müsəlman qadınlar ictimai həyatın təsürrüfat, idarəetmə, hərbi və mənəvi sahələrində.

### MÖVZU № 7. Qadın və kişi İntibah dövründə

Cinslər arasındakı qarşılıqlı əlaqələrin mahiyyətinin dərk olunmasında mövcud stereotiplərin dəyişməsi. İntibah dövründə qadın şəxsiyyətinə münasibət və qadın gözəlliyinə səcdə onun fərqləndirici xüsusiyyəti kimi. İntibah filosoflarının və yazıçılarının əsərlərində qadın gözəlliyi və məhəbbət.

Qadın obrazı İntibah incəsənətində əsas mövzulardan biri kimi. İntibah və Reformasiya hərəkatı. Cinslər arasındakı münasibətlərə dair protestant konsepsiyalar (M.Lüter, C.Kalvin).

### MÖVZU № 8. Yeni dövr mədəniyyətində cinslərin qarşılıqlı münasibətləri

Yeni dövrün sosial-iqtisadi, siyasi və mənəvi xüsusiyyətləri. Yeni dövrdə genezis və ailə-kəbin əlaqələrinin özünəməxsusluğu. Maarifçilik dövrünün fəlsəfi təlimlərində və konsepsiyalarında qender problemləri.

Cəmiyyətin iqtisadi və siyasi fəaliyyətində qadının rolu. 19-cu əsrdə romantizmin təsiri altında qadınlıq ayininin meydana gəlməsi və inkişaf etməsi. 19-cu əsrin qender təsəvvürləri və filosofların əsərlərində onun əks olunması. 19-cu əsr Azərbaycan alimləri və mütəfəkkirlərinin əsərlərində qadın problemi.

### *ƏDƏBİYYAT*


1. Бабаева Л.В., Нельсон Л. Деловая активность женщин в новых экономических структурах. // Социологические исследования, 1996, № 5
2. Вардиман Е. Женщина в древнем мире. – М., 1990
3. Гуревич А.Я. Культура и общество средневековой Европы глазами современников. – М., 1989
4. Гуревич А.Я. Категории средневековой культуры. – М., 1972

5. Здравомыслова Е., Темкина А. Социальное конструирование гендера как феминистская теория. Женщина. Гендер. Культура. (Отв. ред. З.А. Хоткина). – М., 1999
6. Еремеев Д. Ислам как образ жизни. Азия и Африка сегодня. – М., 1977
7. История Азербайджана с древнейших времен. 3-х том., т. 1 – Б., 1958
8. Калабихина И. Социальный пол и проблемы населения. – М., 1995
9. Касумова С.Ю. Азербайджан в III – VII вв. – Б., 1993
10. Клименкова Т.А. Феминизм как культурная позиция. Преображение // Русский феминистский журнал. – М., 1993
11. Мовсумова Л.Д. Проблема женщины в духовной культуре Азербайджана. – Б., 1996
12. Мовсумова Л.Д. Философский анализ женских образов в Коране. – Б., 1997
13. Пол. Гендер. Культура. – М., 1999
14. Теория истории феминизма. Раздел «Культурология и история феминизма». – Харьков, 1996
15. Феминизм и гендерные исследования. Хрестоматия (Под общ. ред. В.И. Успенской). – Тверь, 1999
16. Фукс Э. Иллюстрированная история нравов: эпоха Ренессанса. – М., 1993
17. Шаповаленко М. Теория и практика политической деятельности феминизма. Курс лекций (Под ред. И. Жеребикиной). – Харьков, 1998
18. Эллиот П. Мендел М. Теория феминизма. Гендерные исследования: феминистская методология в социальных науках. (Под ред. И. Жеребикиной). – Харьков, 1998